*Azərbaycanın gəncləri, gənc nəsli, milli ordusu, bu orduda xidmət edən gənclər ölkəmizin bu günü və gələcəyi haqqında daim düşünməlidirlər, xalqımıza, Vətənimizə, millətimizə sədaqətlə xidmət etməlidirlər. Mən əminəm ki, belə də olacaqdır.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır  28 yanvar 2017-ci il  № 7 (2124)  Qiyməti 25 qəpik


*2 Fevral Gənclər Günüdür*

# Gənclik böyük qüvvədir

Ali Baş Komandan İlham ƏLİYEV:

*Bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətənpərvərliyidir. Bu gün Azərbaycanda elə gözəl gənc nəsil yetişib ki, onların hamısı Ali Baş Komandanın əmrini gözləyir.*



*Dövlətimizin başçısı bu sözləri 2014-cü ilin avqust döyüşlərindən sonra Ağdam bölgəsində hərbçilərimizlə görüşündə demişdi. Həmin görüşdə Ali Baş Komandana raport verən hərbçilər düz iki il sonra, 2016-cı ilin aprel döyüşlərində yenidən böyük uğurlar qazandılar. Aprel zəfəri də müasir gəncliyimizin qələbə ruhunu nümayiş etdirdi və bütün dünyaya sübut etdi ki, Azərbaycan torpaqlarını işğaldan azad etməyə qadirdir.*

Müstəqil Azərbaycan dövlətçiliyinin formalaşmasında misilsiz xidmətləri olan ulu öndərimiz Heydər Əliyev siyasi hakimiyyətinin bütün dövrlərində gənclərə cəmiyyətin aparıcı qüvvəsi kimi inanıb və onların düzgün təşkilatlanması üçün dəstəyini əsirgəməyib. "Bu gün Azərbaycan gəncləri xoşbəxtdirlər ki, müstəqil Vətənimizdə yaşayırlar", - deyən Ümummilli Liderimizin təşəbbüsü ilə 1996-cı ildə keçirilmiş ölkə gənclərinin ilk ümumrespublika forumu gənclərimizin düzgün təşkilatlandırılması istiqamətində mühüm addım olub. Təcrübəli lider yaxşı bilirdi ki, gənclərin vahid təşkilat formasında birləşməsinə nail olmadan bütövlükdə ictimai-siyasi həyatımızı inkişaf etdirmək və taleyüklü problemləri həll etmək mümkün olmayacaq. Məhz dahi rəhbərin təşəbbüsü ilə fevralın 2-si Azərbaycanda Gənclər Günü elan olundu və həmin vaxtdan etibarən hər il ölkəmizdə əlamətdar gün kimi qeyd edilir. Həmçinin, gənclərin ölkənin idarəetmə sisteminə inteqrasiyasını təmin etmək məqsədilə yeni bir təşkilat - Gənclər və İdman Nazirliyi də müdrik rəhbərin xeyir-duası ilə yaradıldı. Bu, sonrakı dövrlərdə belə vacib dövlət qurumunun gənclərin təşkilatlanmasında xüsusi rolunu büruzə verdi, yəni, doğrudan da, bu təşkilatın yaradılması həyati əhəmiyyətli bir məsələ idi.

Ötən əsrin 90-cı illərində yenidən bərpa edilən tarixi müstəqilliyimizin qorunub saxlanmasında və möhkəmlənməsində Azərbaycan gəncləri, sözün həqiqi mənasında, əhəmiyyətli rol oynadılar. Yüzlərlə, minlərlə gəncimiz məhz düşmənlə mübarizədə qəhrəmanlıq və fədakarlıq göstərdilər. Böyük öndərimiz əbəs yerə demirdi ki, gənclərin qarşısında dayanan ən məsuliyyətli vəzifələrdən biri Vətənimizin qorunmasını təmin etməkdir. Müharibə dövrünün şahidi olanlara yaxşı məlumdur ki, dahi rəhbərin bir çağırışı ilə on minlərlə gəncimiz torpaqlarımızın müdafiəsinə qalxdı və düşmənlə son damla qanına kimi döyüşməkdən çəkinmədi. "Vətən uğrunda!" şüarı altında məğrur gənclərimiz cəbhənin müxtəlif istiqamətlərində mətinliklə döyüşərək, düşmənin hərbi təcavüzünün qarşısının alınmasına nail oldular. Məhz həmin illərdə formalaşan mübariz Azərbaycan gəncliyi Ümummilli Liderimizin ideyalarından ruhlanaraq Vətənə, dövlətə və xalqa əsl sədaqətlərini sübut edirdi.

**(Ardı 2-ci səhifədə)**

# Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndi bərpa olunacaq

*Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.*

Sərəncamda deyilir ki, ötən ilin aprel ayında Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində insanların təhlükəsiz yaşaması mümkün olmuşdur. Bununla da, tarixən burada yaşamış dinc əhalinin öz doğma yurdlarına qayıtması üçün Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarətinə keçmiş həmin ərazilərdə əsaslı yenidənqurma işlərinin başlanmasına şərait yaranmışdır.

Sərəncama əsasən, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı görüləcək işlər çərçivəsində birinci mərhələdə 50 fərdi yaşayış evinin, məktəb binasının və müvafiq infrastrukturun tikintisi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 4 milyon manat ayrılıb.

**AZƏRTAC**

# Gənclik böyük qüvvədir

**(əvvəli 1-ci səhifədə)**

Müharibə dövründə ön cəbhədə xidmət etmiş zabitlər indi də söhbətlərində qeyd edirlər ki, böyük rəhbərimizin düşmənlə təmas xəttinə hər səfəri gənc döyüşçülərin mübarizə əzmini qat-qat artırırdı. Bəli, Heydər Əliyev müdrik sərkərdə qətiyyəti ilə qızğın döyüşlər gedən bölgələrdə olurdu, onun məsləhət və tövsiyələri Azərbaycan Ordusunun böyük əksəriyyətini təşkil edən gənclərə tükənməz vətənpərvərlik hissləri aşılayırdı.

Müasir dövrümüzdə də dahi rəhbərin siyasi kursu onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun 2003-cü ildən başlanan siyasi hakimiyyətinin bütün mərhələlərində gənclərə diqqət və qayğı, cəmiyyətdə və dövlət idarəetmə sistemində onlara etimad göstərilməsi dövlət rəhbərliyinin siyasi kursunun mühüm istiqamətlərindəndir. Əslində, Azərbaycanın dövlət rəhbərliyi uğurlu gənclər siyasətini həyata keçirməklə cəmiyyətin bu aparıcı qüvvəsini daha da ruhlandırır, onlara qurub yaratmaq əzmi aşılayır.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi və təşəbbüsü ilə respublikamızda böyük idman hərəkatına start verildi, bacarıqlı gənclərimiz öz qüvvələrini mühüm idman tədbirlərində sınaqdan keçirərək, üçrəngli bayrağımızı başları üzərində dalğalandırırlar. Bu məqamları sakit izləmək olmur. Ölkəmizin hüdudlarından çox-çox uzaqlarda bayraqlar arasında üçrəngli bayrağımızın ucalması, Dövlət himnləri sırasında himnimizin səsləndirilməsi, doğrudan da, hər bir vətəndaşımıza sonsuz qürur hissləri aşılayır. Bu səhnələri izlədikcə, damarlarımızda axan qanımız coşur və Ulu Öndərimizin "Mən fəxr edirəm ki, azərbaycanlıyam" kəlməsi duyğularımızı riqqətə gətirir. 2015-ci ildə paytaxtımızda keçirilən ilk Avropa Oyunları və burada idmançılarımızın möhtəşəm uğurlar qazanması, Azərbaycanımızın Dövlət himninin dəfələrlə səsləndirilməsi, bayrağımızın ucaldılması, əslində, dövlət rəhbərliyinin, şəxsən Prezidentimizin gənclərə göstərdiyi böyük diqqət və qayğının parlaq təzahürü idi. Bu yarışların açılışını bildirən məşəlin sağlamlığını torpaqlarımızın qorunması uğrunda mübarizədə itirmiş birinci qrup Qarabağ müharibəsi əlili İlham Zəkiyev tərəfindən zala gətirilməsi, sözün həqiqi mənasında, dövlət başçımız tərəfindən düşmənə ünvanlanan güclü bir mesaj idi. Ali Baş Komandanımız bununla bütün dünyaya bəyan etdi ki, müstəqil Azərbaycanın ərazi bütövlüyü uğrunda hər bir azərbaycanlı torpaqlarımızı işğaldan azad etmək üçün döyüşlərə tam hazırdır.

Ötən ilin aprel döyüşlərində hərbi bölmələrimizin qazandığı uğurlar da bir daha Azərbaycan gəncliyinin vətənpərvərliyini, Silahlı Qüvvələrimizdə xidmət edən şəxsi heyətin vətənpərvər gənclərdən ibarət olduğunu nümayiş etdirdi. Bu günlərdə yeni müasir hərbi hissənin açılışında çıxış edən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprel döyüşlərindən danışaraq qeyd etdi ki, bu döyüşlərdə bizim əsgərlərimiz, zabitlərimiz qəhrəmanlıq göstərdilər. "Biz torpaqlarımızın bir hissəsini işğaldan azad etdik. Aprel döyüşləri hərbi kitablara salınmalıdır. Azərbaycan Ordusu həm hərbi peşəkarlıq, həm də qəhrəmanlıq göstərmişdir."

Gənc hərbi qulluqçularımız Vətəni qorumağın sirlərinə dərindən yiyələnməklə, Müdafiə nazirimizin qeyd etdiyi kimi, "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizini özlərinin həyat amalına çevirirlər. Məhz belə vətənpərvər Azərbaycan gəncliyi gələcəyimizin etibarlı dayağıdır.

**"Azərbaycan Ordusu"**

# Psixoloji işin təşkili diqqət mərkəzində

## Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində hərbi hissələrin psixoloqları ilə təlim-metodiki toplantıdan qeydlər



*Mənəvi-psixoloji hazırlıq qoşunlarda döyüş bacarığının ən zəruri tərkib hissəsidir və qarşıya qoyulan hərbi tapşırıqların sonadək uğurla yerinə yetirilməsi üçün şəxsi heyətdə yüksək döyüş ruhunun aşılanmasına yönəldilib. Azərbaycan Silahlı Qüvvələrində psixoloji dözümlülüyün möhkəmləndirilməsində, şəxsi heyətdə döyüşçü keyfiyyətlərinin yaradılmasında ordu psixoloqlarının üzərinə böyük vəzifələr düşür. Mühüm vəzifələrin öhdəsindən gəlmələri məqsədilə həmin kateqoriyadan olan zabit heyətilə Şəxsi Heyət Baş İdarəsinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi mütəmadi olaraq kompleks tədbirlər həyata keçirir.*

2017-ci il yanvarın 26-da Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində hərbi hissələrin psixoloqları ilə daha bir təlim-metodiki toplantı başlanıb.

Tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının xatirəsini bir dəqiqəlik sükutla yad etdilər, sonra Dövlət himni ifa olundu.

Qeyd etmək lazımdır ki, 2016-cı ildə idarənin zabit heyəti və dövlət qulluqçuları planlı şəkildə ön xətdə yerləşən hərbi hissələrə ezam edilmiş, hərbi hissələrdə şəxsi heyətlə iş üzrə psixoloqlarla maarifləndirmə işləri aparmışlar. Eyni zamanda sosial-psixoloji proseslərin öyrənilməsi və proqnozlaşdırılması, onların hərtərəfli təhlili, korrektə edilməsi və hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərdə neqativ meyillərin aradan qaldırılması üzrə tədbirlər həyata keçirilib. Görülən işlərin nəticəsidir ki, ötən ilin aprelində təmas xəttində hərbi əməliyyatlar zamanı Azərbaycan zabit və əsgərləri yüksək döyüş ruhu, mənəvi-psixoloji davamlılıq, vətənpərvərlik nümayiş etdirdilər.

Həmin döyüşlər vaxtı ordumuzun işğalçılara sarsıdıcı zərbələr vurduğunu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan iclasında qürur hissilə söyləmişdi: "Növbəti erməni hərbi təxribatına cavab olaraq, Azərbaycan Ordusu əks-hücum əməliyyatı keçirmiş və minlərlə hektar torpağı işğaldan azad etmişdir. Bu, bizim şanlı tarixi qələbəmizdir. Bu, bir daha dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərir. Bir daha onu göstərir ki, biz istənilən vaxtda məsələni hərbi yolla həll edə bilərik".

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin şöbə rəisi polkovnik Rauf Dəmirov çıxışını Silahlı Qüvvələrdə 2016-cı il ərzində psixoloji işin təşkilinə və yoxlamaların nəticələrinə həsr etmişdi.

Müdafiə nazirinin 2015-ci ildə imzaladığı qərarla təsdiq edilmiş təlimatın tələblərinə əsasən, Silahlı Qüvvələrdə psixoloji işin təşkilinin həyata keçirildiyini bildirən zabit dinləyicilərin diqqətinə çatdırdı ki, müasir şəraitdə psixoloji-pedaqoji biliklərə malik savadlı zabitlər tərəfindən əsgərlərin idarə olunması, hərbi qulluqçuların döyüş fəaliyyətinin mənəvi-psixoloji təminatı məsələləri böyük əhəmiyyət kəsb edir.

Birliklərdə hərbi hissələrin psixoloqları və şəxsi heyətlə iş üzrə müavinləri ilə ötən il keçirilmiş "Silahlı Qüvvələrdə psixoloji işin təşkili və aparılması" mövzusunda təlim-metodiki toplantı maraqla qarşılanıb. Eyni zamanda aprel döyüşlərində iştirak etmiş şəxsi heyətlə müvafiq şəraitə uyğunlaşdırılaraq psixoloji dəstək və yardım tədbirləri həyata keçirilib, şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti dəyərləndirilib, əsgərlərlə mənəvi-psixoloji hazırlığın daha yüksək səviyyəsini təmin etmək məqsədilə psixoloji söhbətləşmələr aparılıb.

Bir sıra hərbi hissələrdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının, psixoloji dayanıqlığının saxlanılması, hərbi qulluqçuların psixoloji sağlamlığının qorunması istiqamətlərində görülən işlərin vəziyyəti yoxlanıb, psixoloji iş üzrə yerinə yetirilmiş fəaliyyətlər qiymətləndirilib. Belə ki, gənc əsgərlərin sosial-psixoloji məlumat kartları yoxlanıb, temperament tiplərinin müəyyən edilməsi, psixoloji portretinin öyrənilməsinə dair testlər keçirilib. Bu məsələlərin öyrənilməsi, qoşunların mənəvi-psixoloji hazırlıq vəzifələrinin yerinə yetirilməsi, hərbi qulluqçuların təlim-tərbiyə prosesinin səmərəliliyinin artırılması işində, şöbə rəisinin sözlərinə görə, böyük nailiyyətlər əldə olunub.

Zabitlərdən Vüsal Hüseynov, Elşən Vəliyev, Fikrət Qasımov, Şöhrət Əhmədov, Ceyhun Məmmədov, "Loqos" mərkəzinin psixoloqu Rafiq Allahverdiyev, dövlət qulluqçuları Elçin Umudov, İlqar Orucov və başqaları öz çıxışlarında hərbi qulluqçuların deviant davranışları, ailə-məişət problemlərinin hərbi qulluqçuların davranışına təsiri, tabeçilik münasibətlərinin psixoloji təhlili, mənəvi-psixoloji hazırlığın döyüş şəraitinə uyğunlaşdırılması, hərbi intizamın mənəvi-psixoloji şəraitə təsiri, səhra şəraitində hərbi qulluqçulara psixoloji yardımın təşkili və digər məsələlərə toxundular.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

Ön xətdən reportaj

# Azərbaycan əsgəri qələbə əzmindədir

*Son illər ölkəmizin artan hərbi potensialı torpaqlarımızın işğaldan azad edilməsini gerçəkləşdirməyə imkan verir. Ötən ilin aprel döyüşləri də bu reallığı sübuta yetirdi. Bununla yanaşı, Azərbaycanın dövlət rəhbərliyi münaqişənin dinc yolla həllinə - torpaqlarımızın işğaldan danışıqlar vasitəsilə azad edilməsinə tərəfdar olduğunu daim bəyan edir. İşğalçı tərəf bilməlidir ki, xalqımız sülhsevər mövqeyini ifadə etməklə yanaşı, müharibəyə də hər an hazırdır.*



Təcrübəli zabit kimi çoxdan tanıdığım Şahin Qəhrəmanov da aprel döyüşlərinin iştirakçısı olub və uğurlu hərbi əməliyyatlarımızda fərqləndiyinə görə "Vətən uğrunda" medalı ilə təltif edilib. Bölgənin düşmənlə təmas xəttində yerləşməsini qeyd edən zabit bildirir ki, həmin tarixi savaşda hər birimiz qələbə əzmi nümayiş etdirdik. "Dayandığımız hazırkı mövqelərdən düşmənin əksər strateji nöqtələrini susdurmaq üçün hər cür imkanımız var idi. Hərb sənətindən məlumatlı olanlar yaxşı bilir ki, şəxsi heyəti qələbəyə aparan əsas qüvvə döyüş ruhudur. Aprel döyüşləri də əsgər və zabitlərimizin yüksək döyüş ruhunu təsdiqlədi. Həmin günlərdə bütün şəxsi heyətimiz bir nəfər kimi düşmənə güc nümayiş etdirməyə hazır idi."

Hərbi hissənin cavabdeh zabiti hazırlıqlı bölmələrdən danışanda artilleriyaçıların da adını çəkdi. Qeyd etdi ki, digər hərbi bölmələrin şəxsi heyəti kimi, topçular da ötən ili döyüş uğurları ilə yola salıblar. Onların yerləşdiyi əraziyə yaxınlaşanda bir nəfər gənc zabitin rəhbərliyi ilə top heyətlərinin məşğələyə cəlb olunduğunu gördük. Gənc artilleriyaçılar döyüş vərdişlərini daha da artırmaq üçün nəzərdə tutulan təlim tapşırıqlarını yerinə yetirirdilər. Topun döyüş xüsusiyyətlərinin hər bir əsgərə yetərincə aşılandığını bildirən baş leytenant Mehman Bayramalıyev qeyd etdi ki, heyət tərkibində hansı döyüş vəzifəsinə təyin edilməsindən asılı olmayaraq hər kəs müharibə meydanında öz silahdaşını, hətta top komandirini əvəz etməyə maksimum səviyyədə hazır olmalıdır. "Buna görə də top heyətlərinin hazırlığını artırmaq, döyüş vərdişlərini möhkəmləndirmək üçün təlimlərə ciddi önəm veririk. Təlim isə bildiyiniz kimi, həm bölmənin döyüş hesabatı, həm də şəxsi heyətə qələbə ruhu aşılayan əsas vasitədir. Gənclər artilleriyanın sirlərini həvəslə öyrənir, taktiki vərdişlərə dərindən yiyələnirlər. Gördüyünüz kimi, top heyətləri növbəti təlim tapşırığını yerinə yetirməklə məşğuldur."

Top komandiri çavuş Samir Həmidovla söhbətimizə davam edirik. Xidmət etdiyi dövrdə hərbi peşəyə ürəkdən bağlandığını deyən hazırlıqlı çavuşa görə, bütün döyüş bölmələri kimi, artilleriyanın da əsas hədəfi düşməni darmadağın edərək torpaqlarımızı işğaldan təmizləməkdir.

- Artilleriyaçı olmaq da hər kəsdən nəzəri və praktik hazırlıq tələb edir, - dedi top komandiri. - Müharibədə qalib gəlmək üçün hər şeydən öncə şəxsi heyətə döyüş ruhu aşılayırıq. Əsgərlərlə söhbətimdə aprelin əvvəllərində ordumuzun qazandığı şanlı qələbədən və onun tarixi əhəmiyyətindən söhbət açıram. Aprel zəfəri düşüncələrimizi təzələdi, bizə yeni ovqat, vətənpərvərlik ruhu aşıladı. Həmin günlərdə xalqın, millətin orduya güclü dəstəyi bizə bir həqiqəti də anlatdı ki, dövlətinə və xalqına güvənən əsgər məğlubedilməzdir. Bu döyüşlərdə formalaşan ordu və xalq birliyi dönməzdir və böyük qələbəyə gedən yolumuz məhz aprel zəfərindən başlanır.



- Bir komandir olaraq tabeliyində olan əsgərlərdə döyüş ruhunu formalaşdırmaq üçün hansı amillərə üstünlük verirsən?

- Əsgər hər şeydən öncə Vətəninə, xalqına, millətinə sıx tellərlə bağlıdır. Yəni əsgər nəyə, hansı real məqsədə xidmət etdiyini yaxşı dərk edir. Sevinirəm ki, bu gün sıralarımıza qoşulan gənclərin vətənpərvərlik ruhu yüksək səviyyədədir. Yalnız belə ruha köklənən döyüşçü müharibədən qalib çıxa bilər. Ən başlıcası, Azərbaycan əsgəri yaxşı bilir ki, biz işğalçı deyilik, heç bir



dövlətin ərazilərində, torpağında gözümüz yoxdur. Məqsədimiz əzəli torpaqlarımızı işğaldan azad etmək, yurd-yuva həsrəti çəkən vətəndaşlarımızın nisgilinə son qoymaqdır.

Növbəti müsahibim əsgər Fərid Səmidovdur. Fərid on birinci ayın əsgəridir. Xidməti müddətində zəruri vərdişlərə alışdığını və silahdaşları ilə birgə qarşımıza qoyulan döyüş tapşırığını istənilən vaxt yerinə yetirməyə hazır olduğunu qeyd edir. Əsgərə görə, hər təlim, sözün həqiqi mənasında, onları sınağa çəkir və kimin hansı səviyyədə hazırlığa malik olduğunu təsdiqləyir. "Yola saldığımız 2016-cı il mənim də həyatımda əlamətdar oldu. Ən birincisi, Vətənimə övlad haqqımı ödəmək üçün hərbi xidmətə gəldim, təntənəli andiçmə mərasiminə qatıldım, ikinci bir tərəfdən isə, genişmiqyaslı təlimdə iştirak etdim. Təlimdə fərqlənənlər sırasında bizim heyətimizin də adı çəkilmişdi."

Ceyhun Əliyev də Fəridlə eyni bir vaxtda orduya gəlib və eyni bölmənin tərkibində xidmət ediblər. Bakı şəhərindən xidmətə çağırılmış əsgərin sözlərinə görə, ötən il Ali Baş Komandan İlham Əliyevin cəbhə bölgələrinə ardıcıl səfərləri və döyüşçülərə mükafatlar təqdim etməsi ona da ruh yüksəkliyi aşılayıb. "Düşünürəm ki, əgər aprel döyüşlərinin qalibləri sırasında olsaydım, Prezidentimiz əlimi sıxaraq mənə də medal təqdim edərdi."

Artilleriyaçılardan Murad Yusifov, Xəyal Zalov, Fuad Rəsulov və başqaları da söhbətlərində torpaqlarımızın işğaldan azad olunması uğrunda növbəti döyüşlərə hazır olduqlarını bildirdilər.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "Bu gün Cocuq Mərcanlıya qayıdırıqsa, deməli, sabah Şuşaya, Xankəndiyə qayıdacağıq"

*Prezident İlham Əliyevin işğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında Sərəncamı Azərbaycan ictimaiyyətində, xüsusilə məcburi köçkünlərimizdə böyük ruh yüksəkliyinə səbəb olub.*

Bu fikri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Elman Nəsirov deyib.

Elman Nəsirov qeyd edib ki, dövlətimizin başçısının bu qərarı aprel döyüşlərinin uğurlu nəticəsidir. Hamı bilir ki, aprel döyüşləri Prezident, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan tarixində çox şərəfli bir səhifədir. Aprel döyüşləri zamanı Azərbaycan Ordusu yüksək döyüş qabiliyyəti nümayiş etdirərək on minlərlə kvadratmetr torpaqlarımızı, o cümlədən strateji yüksəklikləri azad etdi və hazırda cəbhə xəttində əməliyyat şəraitinə tam nəzarət edir.

Milli Məclisin deputatı deyib: "Dövlətimizin başçısının bu Sərəncamı ilə hər bir azərbaycanlıda inam daha da artdı ki, biz artıq torpaqlarımızı geri qaytarmağa başlamışıq. Cocuq Mərcanlı kəndinin işğaldan azad edilməsi və Prezidentin imzaladığı bu Sərəncam onu göstərir ki, biz böyük bir yolun başlanğıcındayıq. Biz hədəflərimizi bilirik. Hədəflərimiz işğal altındakı bütün torpaqlarımızı geri qaytarmaqdır. Biz artıq bunu edirik və konkret nəticələrimiz göz qabağındadır. Bu gün cəmiyyətimiz böyük ruh yüksəkliyi ilə yaşayır. Cocuq Mərcanlıdan məcburi köçkün düşmüş 190-dan çox ailə öz doğma kəndlərinə köçmək arzusunda idi və dövlətimizin başçısı artıq onların bu arzusunu reallaşdırdı. Bu Sərəncamın həm də böyük bir rəmzi mənası var. Bu, o deməkdir ki, bu gün biz əgər Cocuq Mərcanlıya qayıdırıqsa, deməli sabah tamamilə Cəbrayıla, ondan sonra Füzuliyə, Ağdama, Kəlbəcərə və işğal altında olan digər ərazilərimizə qayıdacağıq. Cocuq Mərcanlıya qayıdış Şuşaya, Xankəndiyə qayıdışın başlanğıcıdır".

AZƏRBAYCAN ORDUSU

*Ümummilli lider Heydər Əliyev demişdi: "Hər bir gənc hansı sahədə çalışırsa-çalışsın, onun ilk vəzifəsi vətənpərvər olmaq, dövləti, xalqını sevmək olmalıdır".*

Ümummilli liderimiz Heydər Əliyev çıxışlarında azərbaycanlı olmağından fəxarət hissi duyduğunu deyirdi, onun böyüklüyünü gənclərə aşılayırdı.

Bəli, hər bir gənc vətənpərvər olmalıdır. Fəxr edirik ki, Vətəni qoruyan igidlərimiz var. Snayper, atıcı, qumbaraatan, heyət nəfəri və ixtisasından asılı olmayaraq düşmənin təxribatlarının qarşısını alan - Vətəni qoruyan əsgərlərimiz var... Belə əsgərlərdən biri də uzun lüləli silahlarla uzaq məsafədən həssas atəş açmaq bacarığına malik olan əsgər Niyaməddin Abbasovdur. Haqqında danışdığımız əsgər snayperdir.

Snayperlərə xüsusi təhsil verilir. Bu şəxslər hədəfləri uzaq məsafədən nişan alaraq məhv etmək vərdişlərinə yiyələnirlər.



# "Hədəfi nişan alanda gözümdə düşmənə intiqam qığılcımı alovlanır"

Silahlı Qüvvələrimizdə də snayperlərin hazırlanmasına ciddi diqqət yetirilir. Təlimlərdə hər bir snayper uzaq məsafədən hər atışında hədəfi vurmaq vərdişinə alışdırılır.

Əsgər Niyaməddin Abbasov xidmətinin bitməsinə az qaldığını, lakin ordu sıralarına qayıtmaq istədiyini bildirdi.

- Müddətli həqiqi hərbi xidmət keçdiyim dövrdə komandirlərimdən çox şey öyrənmişəm, - əsgər dedi. - Snayper olmaq üçün xüsusi təlim keçmişəm. Vətən torpaqlarını azad edərkən öyrəndiklərimi və bacarığımı təsdiqləməyə, düşməni məhv etməyə hazıram. Biz hədəfin əlindəki bir cismi vuracaq qədər məqsədəuyğun atışlar etmək üzrə ixtisaslaşmışıq. Bu ixtisas və belə atışlar, xüsusilə uzaq məsafəni çox yaxşı nişan almağı tələb edir. Əlverişsiz hava hədəfdən yayınmaya səbəb ola bilər. Bu səbəblə snayperlər küləyin güllə uçuşundakı təsirini, yerin cazibə qüvvəsini hesaba qatmaq məcburiyyətindədirlər. Buna görə də snayperlər olduqca diqqətli olmalı, hədəfi daha sərrast nişan almalıdırlar.

- Hansı silah üzrə ixtisaslaşmısan? - sualına təcrübəli əsgər əlindəki silahı göstərərək "Mənə SVD snayper tüfəngi təhkim olunub", - dedi. - Bu silah hərəkətdə olan və gizlənmiş hədəfləri məhv etmək üçündür. Tüfəngdən atəş açmaq üçün adi, trasser, zirehdeşən-yandırıcı və snayper güllələrindən istifadə olunur. Atəş tək-tək açılır. Silahımın taktiki-texniki xüsusiyyətlərinə yaxşı bələdəm. Keçirilən təlimlərdə iştirak etmişəm və hər dəfə də "əla" qiymət almışam. Hədəfi nişan alanda gözümdə düşmənə intiqam qığılcımı alovlanır.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***27 yanvar 2017-ci il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 15 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan və İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım və Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun İşğal altında olan Yusifcanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# "Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisinin məsuliyyətsiz və populist çıxışı təəccüblü deyil"

*Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Movses Akopyanın növbəti dəfə məsuliyyətsiz və populist çıxışı bizi heç də təəccübləndirmir.*

Bunu AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

Nazirlikdən deyiblər ki, qarşı tərəfin cinayətkar hərbi-siyasi rəhbərliyinin nümayəndələri aprel hadisələrinə kimi də bu və buna bənzər müxtəlif bəyanatlarla çıxış ediblər.

Hamımızın yaxşı yadındadır ki, məhz aprel əməliyyatlarından sonra M.Akopyanın Dağlıq Qarabağda qalmasının onun fiziki məhvinə gətirəcəyini anlayan Serj Sarkisyan onu təcili surətdə Yerevana qaçırtmaq məcburiyyətində qaldı.

Apreldə döyüşlərində aldığı güclü zərbədən sonra iflasa uğrayan Ermənistan ordusu və onun rəhbərliyi, deyəsən, bu cür təxribat xarakterli çıxışlarla ölkəsində mövcud olan daxili siyasi, sosial və ictimai gərginliyi sakitləşdirməyə cəhd göstərir.

Lakin M.Akopyan dərk etməlidir ki, Azərbaycan Ordusunun tətbiq edəcəyi müasir silahlar aprel döyüşləri zamanı istifadə olunanlarla müqayisədə daha dağıdıcı olmaqla yanaşı, erməni ordusunun tamamilə məhv edilməsi ilə nəticələnəcək.

# Kamavor Xaçatryanın Ermənistan ordusunun yaralıları barədə məlumatı obyektivliyi əks etdirmir

*Ermənistan silahlı qüvvələri hərbi tibb idarəsinin rəisi Kamavor Xaçatryanın öz ordularındakı yaralılar barədə verdiyi rəqəmlər obyektivliyi qətiyyən əks etdirmir.*

Bu haqda aprel döyüşlərində Ermənistan ordusunun itkilərinin guya az olması barədə K.Xaçatryanın fikirlərinə dair Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a daxil olan açıqlamada məlumat verilib.

Nazirliyin məlumatında qeyd olunub ki, yalnız aprel hadisələri zamanı döyüşlərdə 320-dən artıq düşmən məhv edilib və 500-dən artıq erməni hərbi qulluqçusu yaralanıb. Hətta bəzi erməni müstəqil hərbi ekspertləri də Azərbaycan tərəfinin səsləndirdiyi bu rəqəmlərin həqiqətə daha çox uyğun olduğunu çıxışlarında dolayısı ilə təsdiqləyiblər.

"Hazırda aprel döyüşləri zamanı ağır yaralanan 150-dək erməni hərbi qulluqçusunun Ermənistanın müxtəlif hərbi tibb müəssisələrində və bir sıra xarici ölkələrdə müalicəsi davam edir.

Onu da əlavə edək ki, cari ilin hələ sona çatmayan yanvar ayı ərzində Ermənistan silahlı qüvvələrinin itkilərinin sayı artıq 10-u keçib", - deyə Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildirilib.

*Gənc zabitlərimiz*

# Amalımız Vətənə layiqli xidmətdir



*Bu yaxınlarda dağların zirvəsində Vətənin keşiyini çəkən Azərbaycan əsgərləri ilə görüşmək nəsibimiz oldu. Burada da sinəsini düşmənə sipər edən Vətən oğulları torpaqlarımızı etibarlı müdafiə edirlər. Dağlıq şəraitdə yerləşən bütün postlar yüksək təminata və döyüş qabiliyyətinə malikdir. Peşəkar və vətənpərvər şəxsi heyət bu ərazilərdə tapşırıqların öhdəsindən bacarıqla gəlir.*

Taqım komandiri leytenant Ozan Quluzadə bizi əsgər yataqxanasından tutmuş səngərə qədər bütün şəraitlə tanış edir.

Postla tanışlıq zamanı diqqətimizi qədim alban abidəsi cəlb edir. Düşünürəm: əsgərlərimiz həm də tariximizin düənənini qoruyur. Leytenant Quluzadə ürəyimdən keçənləri duyubmuş kimi bəzi fikirlərini bizimlə bölüşür: "Tarixdən silinməyən izləri qoruyur əsgərlərimiz. Vətən torpağının bir parçası kimi... Azərbaycan Respublikasına qarşı əsassız ərazi iddiaları irəli sürən erməni millətçiləri işğalçılıq əməllərinə haqq qazandırmaq məqsədilə bir çox tarixi faktları saxtalaşdırıblar."

Posta gəlməmişdən qabaq leytenant Quluzadənin nümunəvi və bacarıqlı zabit olduğunun sorağını almışdıq. Şəxsi heyət arasında qarşılıqlı münasibətlər və döyüş növbətçiliyinin düzgün təşkili deyilənlərin doğruluğunu sübut etdi.

1993-cü ildə Ağcabədi rayonunda anadan olub. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirdikdən sonra dağlar qoynunda xidmətini şərəflə davam etdirməyə başlayıb. Gənc zabitlə söhbətimiz maraqlı alındı. İlk olaraq onun gözlərində vətənpərvərlik hissi və düşmənlərin torpaqlarımızı qeyd-şərtsiz tərk edəcəyinə inam gördüm. Mənim də arzuladığım inamdı bu inam.

- Gördüyünüz kimi, postumuzun yüksəklikdə yerləşməsinə baxmayaraq şəxsi heyətimiz üçün hər cür nümunəvi xidmət şəraiti yaradılıb, - deyə leytenant Quluzadə bildirir. - Hərbi qulluqçularımız mürəkkəb şəraitdə xidmət etməyin çətinliklərini yaxşı dərk edir və bilirlər ki, onların qarşısında bir vəzifə dayanır - torpaqlarımızı etibarlı qorumaq. Güclü maddi-texniki təminat, yüksək xidmət şəraiti əsgərlərimizin döyüş əzmini daha da artırır. Şəxsi heyətin məişət şəraiti yüksək tələblər səviyyəsində qurulub. Bütün bunlara tək öz gücümlə nail ola bilmərəm. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Rəhman Yusibov, Elyar Əhmədov, Rəşadət Osmanov yaxın köməkçilərimdir.

Aprel döyüşlərinin birbaşa iştirakçısı olmayan həmkarımız sülh danışıqları baş tutmasa, gələcək döyüşlərdə iştirak etmək və düşməni məhv etmək arzusunu bildirməklə yanaşı, gündəlik fəaliyyətə də nəzər yetirdi: "Hər gün postun gündəlik qayğıları həll edilir, silah və texnikalara qulluq göstərilir və ən əsası fasiləsiz döyüş növbətçiliyi aparılır. Şəxsi heyətimizin vahid amalı Vətənə layiqincə xidmət etməkdir.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*İnsanı inam yaşadır. Bu inam torpağa, Vətənə görədirsə, çox möhtəşəm olur. Bəlkə də ahərrübə kimi yaşantıları özünə çəkir.*

Ovqat

# Cocuq Mərcanlının işıqları yanacaq

Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğal olunmuşdu. Qısa müddətdən sonra ordu hissələrimiz kəndi azad etdilər. Camaat bu qələbədən sevindi. Doğma evlərinə qədərsiz sevinclə, qədərsiz istəklərlə qayıtdı. Ancaq... kənddə evlərin damlarının, qapı-pəncərələrinin sökülməsi onları varından yox elədi - ürəkləri göynədi. Düşmən kəndi acınacaqlı vəziyyətə salmışdı, kənddə yaşamaq mümkün deyildi. Camaat kəndə qayıtsaydı, Lələtəpədə mövqe tutmuş düşmən onlara rahatlıq verməzdi. Evlər bu günə düşməsəydi, nə qorxu, nə ehtimal olunan həmlələr onları qorxutmazdı...

Burada döyüş növbəsində olanlar da, bura gələnlər-görənlər də, ermənilərin əlamətlərinə yanıb-yaxılırdı. Ağsaqqallar, yaşlılar təəssüflə pıçıldayırdı: "Gec elər, güc elər". Əsgərlərin əlləri avtomatların qundağını sıxırdı: "Torpaqlarımızı işğaldan azad edəcəyik. Bu kənd də əvvəlki görkəminə düşəcək, camaat doğma yurdunun ocağını yenidən alışdıracaq..."...



Apreldə erməni hərbi birləşmələrinin irimiqyaslı təxribatlarının qarşısını alan hərbi birləşmələrimiz əsgərlərin düşüncələrinin gerçəkləşəcəyinin təsdiqidi, şübhəsiz. Lələtəpə yüksəkliyinin düşməndən təmizlənməsi xalqın inamını dönməzləşdirdi. Aprelədən bu kənd də düşmənin nəzarətindəydi, atəşkəsi pozmaqla bu kənddə döyüş növbəsi aparan əsgərlərimizi də gərginlikdə saxlayırdı. Cocuq Mərcanlılar da Lələtəpənin ermənisizləşdirilməsini kəndə dönüşün inam işığı bildilər...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq fərmanı camaatın intizarına son qoydu. Kənddə abadlıq işləri aparılacaq, evlər təmir ediləcək, evlərin daşı-divarı əzizlərinin əllərinin təmasıyla isinəcək, kənd yenə əvvəlki qaynarlığına qayıdacaq. Evindən-eşiyindən perik düşənlərin sevincini təsəvvür etmək çətin deyil.

O qayıdış üçün ayları deyil, günləri də sayacaqlar. Cocuq Mərcanlıya aparan yolun insan yükü artacaq. Kəndin ot basmış izlərinə yeni izlər düşəcək: kənddə yeni sevdalar cücərəcək; kəndin qırışığı açılacaq.

Həmin fərman hələlik Cocuq Mərcanlıya aiddi. Yaxın vaxtlarda bu mahiyyətli fərman işğaldan azad olunmuş rayonlarımıza şamil ediləcək. Bu fərman intizarımızın sonu olacaq. Şəhidlərimizin ruhu narahatlıqdan qurtaracaq, Azərbaycan əsgərinin qətiyyəti bir mətləbin təsdiqi olacaq: bu torpaqlarda bir daha yad yelər əsməyəcək!

Bu fərman Cocuq Mərcanlıya aparan yolun Şuşaya, Xankəndinə, işğal olunmuş digər torpaqlarımıza aparacağına inamın təzahürüdü...

Bu günlərdə Mədəniyyət kanalında bir sənədli filmə baxırdım. Çağdaş jurnalistikamızın öncül ustadlarından olan professor Cahangir Məmmədlinin ömür yolunu işıqlandırırdı; müəllimimiz qədərsiz kədərlə işğalda olan kəndləri səmtə baxırdı. Onun da həsrətinin çiliklənməsinə az qalıb...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu fərmanı Cocuq Mərcanlıların timsalında məmləkətimizi bir inamın işığında cəmləşdirir: torpaqlarımız işğaldan azad ediləcək, müharibənin təzahürləri aradan qaldırılacaq...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# "Əsgərlərimizin məişəti müasir tələblər səviyyəsindədir"

*Silahlı Qüvvələrimizdə yeni hərbi şəhərciklərin, əsgəri məişət komplekslərinin tikilib istifadəyə verilməsi, ölkəmizin müdafiə qüdrətinin daha da gücləndirilməsi dövlətimizin, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin orduya göstərdiyi diqqətin və qayğının bariz nümunəsidir.*





Bu günlərdə Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordusunun "N" hərbi hissəsindəki əsgər yataqxanasının və əsgər-məişət kompleksinin açılışı zamanı yeməkxana işçisi aşpaz Gülarə Qurbanovanın ölkə rəhbərinə "Cənab Ali Baş Komandan, Sizin gəlişinizə çox şadıq. Sizə öz minnətdarlığımızı bildiririk. Gün o gün olsun, belə hərbi hissələr Qarabağda, Laçında, Şuşada salınsın, biz də orada əsgərlərimizə qulluq edək. Sizə bir daha uzun ömür, cansağlığı arzulayıram" sözləri hər birimizin ürəyindən keçən arzunu, istəyi ifadə edir. Əlbəttə, o gün uzaqda deyil, tezliklə torpaqlarımız işğaldan azad olunacaq və həmin ərazilərimizdə ordumuzun müasir hərbi şəhərcikləri salınacaq.

Cəbhəboyu zonada yerləşən hərbi hissələrimiz də yenidən qurulur. Ezamiyyətdə olduğum "N" hərbi hissəsində də böyük quruculuq və abadlıq işləri aparılıb. Ərazidə geniş, müasir hərbi şəhərcik salınıb. Şəxsi heyətin təminatı üçün zəruri tədbirlər görülüb. Hərbi hissədə əsgər yataqxanası, yeməkxana, camaşırxana və hamamxana kompleksi, ərzaq və əşya anbarları, ideoloji otaqlar yaradılıb, onlar müasir zəruri avadanlıqlarla təmin edilib. Onu da qeyd edim ki, ön xətdə yerləşən bu hərbi hissə Qarabağ müharibəsində şərəfli döyüş yolu keçən bölmələrimizdən biridir.

Hərbi hissənin camaşırxanasına baş çəkəndə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Ceyhun Rzayev kollektivin əsasən qadın mülki işçilərdən təşkil edildiyini və bu işin səmərə verdiyini dedi. "Burada dörd bölmə fəaliyyət göstərir: yuma, qurutma, ütüləmə, çeşidləmə. Hər bölmənin növünə uyğun iş bölgüsü var. Gördüyünüz kimi, "Koramlüks" adlanan yuyucu maşın dünyanın ən müasir texnologiyasına əsaslanır. Onun texnologiyasını öyrənmək üçün xüsusi kurs keçmişəm. Heç bir çətinlik çəkmədən öyrəndiklərimi ustalıqla tətbiq edirəm. Bizim əsas işimiz və məqsədimiz şəxsi heyətin təmizliyini, səliqə-sahmanı qorumaqdır. Ona görə də hər kəs işinə məsuliyyətlə yanaşır".

Çavuş C.Rzayev Beyləqan rayonundandır. 2008-ci ildən Azərbaycan Ordusunun sıralarında xidmət edir. Hazırda xidmət etdiyi hərbi hissəyə 2011-ci ildə gəlib. İlk gündən vəzifə borcunun məsuliyyətini dərindən dərk edib, nümunəvi hərbçi kimi şəxsi heyətin rəğbətini qazanıb.

Kollektivdə səmimi və işgüzar bir şəraitin şahidi oluram. Həqiqətən də, qadın əlinin səliqəsi elə ilk addımda hiss olunur. Öyrənirəm ki, yumada Validə Mirzəcanova, qurutmada Gözəl Nəsirova, ütüləmədə Elnurə Əliyeva, çeşidləmədə Zemfira Məmmədova böyük məsuliyyətlə çalışırlar. Onlar şəxsi heyətin təmiz geyimlərlə təmin edilməsi üçün cavabdehlik daşıyırlar.



Mülki işçi V.Mirzəcanova söhbətində bildirdi ki, indi bir çox hərbi hissələrin camaşırxanasında bizdə olduğu kimi müasir yuyucu maşınlar var. "Artıq ordumuz əvvəlki illərin ordusu deyil, günü-gündən yenilənir, təkmilləşir. Bunun üçün Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevə minnətdarıq. O, ordumuza hər zaman böyük diqqət ayırır. Bizim borcumuz isə Vətənimizin keşiyində dayanan əsgərlərin məişət qayğılarını həll etməkdir."

Sonra hərbi hissənin müasir əsgər yeməkxanasının rəisi gizir Natiq Mehdiyev hərbi hissənin ərzaq təminatının yüksək səviyyədə olduğunu dedi. "Ərzaq anbarları müasir soyuducu kameralarla, zəruri avadanlıqlarla təchiz olunub. Gündəlik nəzərdə tutulan ərzaqlar və qida məhsullarından aşpaz xanımlar şəxsi heyət üçün dadlı xörəklər hazırlayırlar. Hər gün müxtəlif çeşiddə hazırlanan yeməklər əsgərlərimizin ürəyincə olur".

Aşpazlardan Aynurə Suvarova, Sadiqə Bayramova, Gülnisə Şərbətova və başqaları bildirdilər ki, Azərbaycan mətbəxinə, milli kulinariyamıza daha çox üstünlük verirlər. Bu da əsgərlərimizdə xoş ovqat, yüksək əhval-ruhiyyə yaradır. Bişirilən yeməklərdən hamı razı qalır.

Tezliklə Qarabağımız, Şuşamız, Laçınımız və digər torpaqlarımız işğaldan azad olunacaq, o torpaqlarımızda belə hərbi şəhərciklər salınacaq, aşpaz xanımlarımız da orada əsgərlərimizə qulluq edib milli xörəklər bişirəcəklər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Həzi Aslanov - 107*

# Qəlblərdə yaşayan sərkərdə

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun ildönümü görkəmli sərkərdənin adını daşıyan Mərkəzi Zabitlər Evində də qeyd olundu. Tədbirdə bir qrup zabit, gizir, çavuş, hərbi təhsil ocaqlarının kursant heyəti, qəhrəmanın ailə üzvləri və digər qonaqlar iştirak etdilər. Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirildi.*



İkinci Dünya müharibəsinin tərkib hissəsi sayılan Böyük Vətən müharibəsində xalqımızın istər ön cəbhədə, istərsə də arxa cəbhədə göstərdiyi qəhrəmanlıqlardan illər keçdikcə daha çox bəhs edilir. Xalqımızın oğul və qızlarının əmək və döyüş meydanlarında göstərdiyi fədakarlıqlar unudulmur, nəsillər dəyişdikcə daim xatırlanır.

Aparılan tədqiqatlardan aydın olur ki, hərb tariximizə şanlı səhifələr yazan görkəmli sərkərdəmiz Həzi Aslanovun faşizm üzərində tarixi qələbənin qazanılmasında misilsiz xidmətləri olmuşdur. Onun hərb elminə gətirdiyi yeniliklər bu gün də tədris edilir və öyrənilir.

Azərbaycana şan-şöhrət qazandıran qəhrəmanın xatirəsinə həsr olunan tədbir maraqlı çıxışlarla davam etdi. Mərkəzi Zabitlər Evinin mədəni-kütləvi iş bölməsinin müdiri Gülxar Məmmədova Həzi Aslanovun həyatı və döyüş yolu haqqında danışaraq bildirdi ki, Böyük Vətən müharibəsi başlayanda Həzi Aslanov Ukraynada xidmət edirdi, müharibənin ilk günlərindən özünü bacarıqlı sərkərdə kimi göstərib.

Natiq qeyd etdi ki, 13 mart 1944-cü ildə Həzi Aslanova tank qoşunları general-mayoru rütbəsi verilir. "Sərkərdənin döyüş yolu Volqa sahillərindən Baltik dənizinin sahillərinə qədər uzanır. Bu dövr ərzində Ali Baş Komandanlıq tərəfindən 8 dəfə təşəkkür alıb. Həzi Aslanovun tank alayı Rostov, Taqanroq şəhərlərinin azad edilməsində və Kursk vuruşmalarında fəal iştirak edir. O, 1944-cü ildə Belarusiya cəbhəsində göstərdiyi şücaətinə görə 2-ci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülür. 24 yanvar 1945-ci ildə Həzi Aslanov Latviyanın Liepeya rayonunda ağır yaralanır. Bir gün sonra Moskvaya köçürülməsi tapşırılsa da, cəbhələrdə şərəfli döyüş yolu keçən qəhrəman həmyerlimiz yolda vəfat edir. Azərbaycan oğlunun cənazəsi 1945-ci il yanvarın 26-da təyyarə ilə Bakıya gətirilir. Həmin gün Bakının küçələri izdihamla dolu olur, xalqımız qəhrəman oğlunu - Həzi Aslanovu son mənzilə yola salmaq üçün Dağüstü parka axışır."

Tədbirdə iştirak edən "Sərkərdənin taleyi" kitabının müəllifi, əməkdar incəsənət xadimi, tədqiqatçı alim Musa Bağırov tank qoşunları qvardiya general-mayoru Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsində göstərdiyi səylərdən, bu yolda yorulmadan apardığı tədqiqat işlərindən söhbət açdı: "Gördüyünüz bu zalda 72 il öncə Həzi Aslanovun cənazəsi qoyulmuşdu. Deyirlər, o zaman insan axınının sonu görünmürmüş. Onu son mənzilə yola salmağa təkcə Azərbaycanın hər yerindən deyil, bir çox respublikalardan sadə insanlar, cəbhə dostları xalqımızın qəhrəman oğluna ehtiram əlaməti olaraq gəlmişdi. Müharibə dövrü tibb-sanitar hissəsinin rəisi olmuş Georgi Beqiaşvili ilə görüşərkən müəmmalı şəraitdə həlak olan Həzi Aslanovun yaralanma və ölüm anının sirlərini, hətta öz qanından ona verdiyini, qəsdən Moskvaya vaxtında çatdırılmaması və digər səbəbləri mənə söyləmişdi. Ömrümün yarısını həsr etdiyim uzun illik mübarizədən sonra 47 il gecikmiş bir təqdimatın ədalətli sonluğuna - xalqımızın sərkərdə oğluna ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsinə nail oldum".

...Qəhrəmanın adının əbədiləşdirilməsi üçün 1969-cu ildə Lənkəranda Həzi Aslanovun ev muzeyi açılır, 1983-cü il mayın 8-də burada heykəli qoyulur. Bakıdakı küçələrdən və metrostansiyalardan birinə Həzi Aslanovun adı verilib. Lənkəran, Bakı və Volqoqradda onun adına məktəblər fəaliyyət göstərir. Xəzər Dəniz Gəmiçiliyinə məxsus tankerlərdən biri əfsanəvi qəhrəmanımızın adını daşıyır. Tarix bu adı Vətənə sədaqətli xidmət nümunəsi kimi əsrlər boyu yaşadacaqdır. Həzi Aslanov haqqında filmlər çəkilmiş, qəzet və jurnallarda məqalələr, kitablar və romanlar yazılmışdır. Xalqımızın ümummilli lideri Heydər Əliyev vaxtilə böyük qürur və fərəh hissi ilə demişdir: "Həzi Aslanov öz qəhrəmanlıq, cəsurluq nümunələri ilə Azərbaycan xalqını dünyada tanıtmış bir şəxsiyyətdir. Həm döyüşçü, həm sərkərdə, həm də vətənpərvər bir insan olan Həzi Aslanov bizim üçün daim əziz olub və gələcək nəsillər üçün də əziz olacaqdır".

Müharibə veteranlarının çıxışları ilə davam edən tədbir sonda səngərlərdə, qanlı-qadalı döyüşlərdə səsləndirilən mahnılardan ibarət konsert proqramı ilə başa çatıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Bu yaxınlarda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində İkinci Dünya müharibəsinin görkəmli sərkərdələrindən biri, xalqımızın rəşadətli oğlu, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 107-ci ildönümünə həsr olunan tədbir keçirildi.*





Polkovnik-leytenant Mikayıl Hüseynov qonaqları, müəllim və kursant heyətini salamladı. Ulu öndər Heydər Əliyevin, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, müstəqilliyimiz və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildikdən sonra "Ürəklərdə yaşayan sərkərdə" sənədli filmi nümayiş etdirildi.

İlk söz alan Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Zəminə Xınalı Həzi Aslanov haqda oxuduğu kitablardan bəzi xatirələri yada salaraq xoşbəxt millət olduğumuzu diqqətə çatdırdı: "Biz o qədər xoşbəxt millətik ki, oğullarımız uzaqlarda da Azərbaycanın adını həmişə yaşadıblar. İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanov hər birimizə örnək olan, Azərbaycanın adını yüksəldən oğullardandır. İndiki müharibə şəraitində də Həzi Aslanov kimi oğullarımız az deyil."

Daxili İşlər Nazirliyinin keçmiş əməkdaşı, ehtiyatda olan polkovnik Həmid Cəfərov çıxışında ümummilli lider Heydər Əliyevin peşəkar zabit hazırlığına və qəhrəmanlıq salnaməsində adı keçən oğullarımıza qayğı göstərməsinə diqqət çəkdi: "Ümummilli Liderin rəhbərliyi dövründə istər İkinci Dünya müharibəsində, istərsə də Qarabağ müharibəsində döyüşən oğullarımız dövlətin himayəsində olublar. Ulu Öndərimizin Həzi Aslanov kimi oğullarımıza diqqət və qayğısı baxdığımız sənədli filmdəki çıxışından görsənir: "Həzi Aslanov Azərbaycan xalqının Böyük Vətən müharibəsində mərdliklə döyüşən, vuruşan nümayəndələrindən ən görkəmlisidir. O, döyüşlərdə həlak olmuş, ancaq öz vətəndaşlıq borcunu yerinə yetirmiş, Azərbaycan xalqının hansı yüksək mənəvi xüsusiyyətlərə layiq olduğunu nümayiş etdirmişdir. ... Mən Böyük Vətən müharibəsində həlak olmuş, Azərbaycan torpaqlarını erməni təcavüzkarlarından müdafiə edərkən şəhid olmuş qəhrəman övladlarımızın xatirəsi qarşısında baş əyirəm."

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov Azərbaycan Ali Hərbi Məktəbində görüşün təsadüf olmadığını bildirdi: "Biz həmişə çalışırıq ki, bizim kursantlarımız, gələcək zabitlərimiz ən yüksək biliyə nail olsunlar. Onların xidməti ilə həmişə maraqlanırıq. Arzu edirik ki, onlar da Azərbaycanın qəhrəman oğullarına oxşasınlar. Gördüyünüz film göstərdi ki, Həzi Aslanov Azərbaycanın Böyük Vətən müharibəsində xidmət etmiş ən görkəmli sərkərdələrindən biridir. İki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş həmyerlimiz qeyri-adi istedada malik olan bir hərbçi idi. Belə qəhrəmanlarımız gənc nəsil üçün örnəkdir. Çünki dövlətimizin təhlükəsizliyini sizlər təmin edəcəksiniz. Azərbaycan torpağını işğaldan siz azad edəcəksiniz. Ona görə də hərbi, fiziki, mənəvi hazırlığınız yüksək səviyyədə olmalıdır. Torpaqlarımızın işğaldan azad olunmasında siz də öz sözünüzü deyəcəksiniz, Azərbaycan bayrağını Şuşada, Xankəndində və işğal olunmuş digər rayonlarımızda dalğalandıracaqsınız."

Sonda bir qrup hərbi qulluqçuya Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının adından fəxri fərmanlar təqdim edildi.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Vətənpərvərlik dönməz prosesdir

*Vətənpərvərlik tərbiyəsi müxtəlif formalarda, müxtəlif üsullarla aparılır. Bu üsullardan biri də veteranlarla görüşlərdir. Veteranların tarixə, milli mentalitetə söykənən söhbətləri istər yeniyetmələrin orduya hazırlığına, istərsə də əsgərlərin mənəvi hazırlığına təsirsiz ötüşə bilməz. Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Təşkilatının bu istiqamətdə fəaliyyəti təqdirəlayiqdir.*



Bu günlərdə Hərbi Dəniz Qüvvələrində keçirilən tədbirdə birinci dərəcəli kapitan Natiq Bağırov qonaqları təqdim etdi.

Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxışında bilavasitə şəxsi heyətlə işləyən zabitlərin üzərinə düşən vəzifələrdən, zabit-əsgər münasibətlərinin daha da möhkəmləndirilməsi zərurətindən əsgərin mənəvi hazırlığının döyüş hazırlığı qədər vacib olmasından danışaraq qeyd etdi ki, aprel döyüşləri həm ordumuzun gücünün, həm də ordu ilə xalqın birliyinin təsdiqi oldu. “Təsdiqləndi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir, sülh danışıqları baş tutmasa, Ali Baş Komandanın döyüş əmrinə hazırdır.”





Ehtiyatda olan polkovnik Adil Haqverdiyev çıxışında dedi ki, vətənpərvərlik hisslərinin daha dinamik yüksəlişi ordunun gücü deməkdir. “Ordumuz kifayət qədər güclüdür. Ən müasir silahlar da əsgərə həvalə edilir. Deməli, əsgərin həm döyüş, həm də mənəvi hazırlığı bir-biriylə təmasda aparılmalıdır. Zabitlərimiz bu amili həmişə diqqətdə saxlamalıdırlar.”

Silahlı Qüvvələrimizdə, əsasən də Hərbi Dəniz Qüvvələrində 1-ci dərəcəli kapitan Aleksandr Qritçenko yaxşı tanınır. O, 51 kitab müəllifidir, 95 yaşı var. İstər təcrübəsini, istərsə də xatirələrini Silahlı Qüvvələrimizin əsgər və zabitləriylə böyük səxavətlə bölüşür. Tədbirdə iştirak edən qocaman hərbçi Böyük Vətən müharibəsində azərbaycanlı əsgər və zabitlərin xidmətlərindən, şücaətlərindən söz açaraq bildirdi ki, mən ömrümün yarısını Bakıda yaşamışam. “Özümü bakılı hesab edirəm. Silahlı Qüvvələrimizlə həmişə fəxr etmişəm. Ona sevinirəm ki, yazdığım kitablar Azərbaycan Ordusunun əsgər və zabitlərinin mənəvi hazırlığında az-çox gərəkli olur.” Sonra tədbir iştirakçılarına müraciətlə "Sevin Vətəni" - dedi. "Vətəni sevin, Xəzəri sevin. Gəncliyimin şahidi olan Bakı da, Xəzər də mənim ömrümün məbədidi...".

1-ci dərəcəli kapitan Zaur Hümmətov gərəkli tədbir üçün qonaqlara minnətdarlığını bildirdi.

Sonda bir qrup zabit Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının idarə heyəti adından ordenlə, fəxri fərmanla təltif edildi.

Tədbir bir daha təsdiqlədi ki, vətənpərvərlik dönməz prosesdir...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Ailə ənənəsi

*Hərbi sahədə bütün ixtisaslar bir-birini tamamlayır. Hər birinin başlıca qayəsi döyüş hazırlığıdır. Motoatıcı da, mühəndis də, kəşfiyyatçı da, rabitəçi də, bir sözlə, hamı döyüş vərdişlərini artırır. Ordu sıralarına daxil olan gənclər arasında elə əsgərlər də var ki, onlar mülki həyatda müəyyən bilik və bacarıqlara yiyələnirlər. Belə əsgərlərdən biri də cəbhə bölgəsində yerləşən hərbi hissədə tanıdığım əsgər Eltun Ağayevdir. Eltun rabitəçidir, yarım ildir ki, hərbi xidmətdədir.*

Əsgər Eltun Ağayevlə xidmət yerində görüşdüm. Onunla qısa tanışlıqdan məlum oldu ki, rabitəçi ailəsində böyüyüb. Atası Candadaş uzun illərdir Şabran rayonu Aztelekom xidmətində mühəndis işləyir. Anası da rabitə sahəsində çalışır. Eltun rabitəçi ailəsində böyüdüyü üçün bütün rabitə vasitələri üzrə mükəmməl bilik və bacarıqlara malikdir. Əsgər söhbətimizdə deyir ki, döyüş növbəsində dayanan əsgərlərlə istənilən səviyyədə rabitə əlaqəsi yarada bilir.

- Kiçik yaşlarımdan rabitə vasitələri ilə bağlı ətraflı söhbətlər dinləmişəm. Buna görə də erkən çağlarımdan rabitə sahəsinə marağım yarandı. Böyüyəndə doğmalarım kimi mən də rabitəçi olacağımı düşündüm. Bu sahə daim inkişaf edir, yenilənir. Hərbi xidmətə gəldiyim ilk günü komandirlər bizimlə fərdi söhbət apardılar. Rabitə avadanlıqlarından suallar verdilər. Hamısına da dolğun cavab verdim. Bundan sonra məni rabitə ixtisası üzrə kursa yazdılar. Hərbi xidmətlə bağlı bilik və bacarıqları da onda qazandım.

Əsgər E.Ağayev Bakı İdarəetmə və Texnologiya Kollecini bitirib. Həm də mobil telefonların və kompüterlərin təmiri ilə məşğul olub. Daim yeniləşən və inkişaf edən rabitə sahəsində kifayət qədər təcrübəlidir. Əsgər deyir ki, hərbidə olan rabitə vasitələri ilə mülkidə olan avadanlıqlar arasında elə ciddi fərq yoxdur. "Texnologiyalar əsrində yaşayırıq və daim yeni avadanlıqlar meydana gəlir. Onlardan istifadə etməyi öyrənmək vacibdir."



Hərbi əməliyyatlarda rabitənin xüsusi yeri var. Müasir dövrdə döyüşü idarə etməyin ən etibarlı vasitələrindən biri də rabitədir. Döyüş tapşırığının bölmələr tərəfindən vaxtında və dəqiq yerinə yetirilməsi üçün bu vasitələrdən istifadə edilir.

Əsgər Yaşar Şakirov da rabitə otağındadır. O hərbi xidmətini başa vurmaq ərəfəsindədir. Rabitəçi ixtisasını mükəmməl öyrəndiyini deyən əsgər gələcəkdə də hərbi xidmətdə qazandığı bilik və bacarıqlardan yararlanacağını bildirdi. Bundan əlavə, torpaqlarımızı işğaldan azad etmək üçün hər zaman döyüşə hazır olduğunu dedi. Saatlı rayonundan olan Yaşarın onu əvəz edəcək əsgərlərə sözü var: "İstərdim ki, rabitə sahəsində bütün əsgərlər Eltun Ağayev kimi bilikli, bacarıqlı və xidmətlərində məsuliyyətli olsunlar."

Hər bir ixtisas üzrə olduğu kimi, rabitəçi ixtisası üzrə də peşəkar zabitlər gənc əsgərlərin hazırlığı ilə ciddi məşğul olurlar. Onlar gənc rabitəçilərə zəruri bilik və bacarıqlar aşılayırlar. Şübhəsiz, torpaqlarımızın işğaldan azad edilməsində rabitəçilərin də rolu böyük olacaq...

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Meksika “Trampın səddi” üçün pul ödəməyəcək



Meksika hökuməti ABŞ Prezidenti Donald Trampın iki ölkə arasında səddin tikintisinə başlamaq qərarını tənqid edib.

Meksikanın bir neçə siyasətçisi Birləşmiş Ştatları məhkəməyə verməyə çağırıb. Ölkə Prezidenti Enrike Penya Nyeto isə öz növbəsində Trampın israr etməsinə baxmayaraq, səddin tikintisi üçün pul ödəməyəcəyini bir daha bəyan edib. Nyeto ABŞ prezidentinin bu qərarı Meksika hökumət nümayəndələrinin Vaşinqtonda ticarət, təhlükəsizlik və miqrasiya məsələlərini müzakirə etdiyi bir vaxtda verməsindən təəssüfləndiyini bildirib.

### Moqadişoda otelə hücum zamanı azı 14 nəfər ölüb



"Əş-Şəbab" yaraqlılarının Somalinin paytaxtı Moqadişoda yerləşən "Dayah" otelinə hücumu nəticəsində azı 14 nəfər həlak olub, 25 nəfər yaralanıb. Hücum zamanı oteldə Somali parlamentinin 20 üzvü olub. Onlardan heç birinin xəsarət almadığı bildirilir.

Xatırladaq ki, yanvarın 25-də "Dayah" otelinin qarşısında iki minalanmış avtomobil partladılıb. Bundan sonra yaraqlılar otelə daxil olub və atışma başlayıb. Əsasən siyasətçilərin, hökumət nümayəndələrinin qaldığı bu otel Somali parlamentinin yaxınlığında yerləşir.

### Mərakeşin Zaatari hospitalında 137 min suriyalıya tibbi yardım göstərilib



Mərakeşin Zaatari hospitalının açıqladığı məlumata görə, 2016-cı ildə bu tibbi müəssisə 137 min suriyalıya tibbi yardım göstərib. Bu hospital Suriyanın İordaniya ilə sərhədində qurulub və 60 çarpayı yeri var.

Tibbi yardım edilən suriyalıların xeyli hissəsi - 53 mindən çoxu uşaqlardır. Bundan başqa, 48 minə yaxın qadına, 37 mindən artıq kişiyə də tibbi yardım göstərilib. Mərakeş hospitalının həkimləri mindən çox suriyalı üzərində cərrahi əməliyyat həyata keçirib.

### Yunanıstan 8 FETÖ-çünü Türkiyəyə qaytarmaqdan imtina edib



Yunanıstan Fəthullahçı terror təşkilatının (FETÖ) bu ölkəyə qaçmış 8 üzvünü Türkiyəyə qaytarmaqdan boyun qaçırıb.

Yunanıstan Ali Məhkəməsi Fəthullahçı terror təşkilatının (FETÖ) iyulun 15-də dövlət çevrilişi cəhdindən sonra hərbi helikopterlə bu ölkəyə qaçan 8 hərbçinin Türkiyəyə qaytarılmaması ilə bağlı qərar qəbul edib.

### Türkiyədə Kazım Qarabəkir Paşanın xatirəsi yad olunub



Türkiyənin görkəmli siyasi və dövlət xadimi, cəsur ordu komandanı Kazım Qarabəkir Paşanın vəfatından 69 il keçir. Bununla əlaqədar Türkiyənin Karaman vilayətindəki Kazım Qarabəkir rayonunda anım mərasimi təşkil edilib, mərhum siyasi və dövlət xadiminin xatirəsi yad olunub. Kazım Qarabəkir Paşanın rayon mərkəzindəki heykəli önünə gül çələngləri düzülüb, onun istər ordu komandanı, istərsə də Türkiyə Böyük Millət Məclisinin sədri kimi öz xalqı qarşısındakı tarixi xidmətlərindən bəhs olunub.

Qeyd edək ki, XX əsrin əvvəllərində Azərbaycan Respublikasının Naxçıvan bölgəsinin qurtuluşunda, həmçinin muxtar status almasında misilsiz fədakarlıq, qətiyyətli mövqe nümayiş etdirən Kazım Qarabəkir Paşa Türkiyədə sevildiyi kimi, Azərbaycanda da böyük məhəbbətlə xatırlanır.

**AZƏRTAC-ın materialları əsasında**



## Redaksiyamızın poçtundan

# Vətəni sevirik!..

Uşaqlığımız da, yeniyetməliyimiz də müharibə illərinə təsadüf elədi. Azərbaycan Ordusu gəncliyimizi müharibə şəraitində yaşamağa qoymayacaq - torpaqlarımızı işğaldan azad edəcək. O gün uzaqda deyil. Yaxın vaxtlarda o günün sevincini yaşayacağıq.

Şəhidliyə, şəhidlərimizə mənim də böyük ehtiramım var. Evdə anamdan, məktəbdə müəllimlərimdən eşitdiklərim Vətəni sevənləri mənə nəhayətsiz sevdirib.

Bu günlərdə televiziyada bir verilişə baxırdım. Aprel döyüşlərində şəhid olmuş mayor Elnur Əliyevə həsr olunmuşdu. Şəhidin dəfn mərasimi məqamı məni çox kövrəltdi. Vətən üçün yaşayıb Vətən üçün ölənlərin son mənzilə yola salınması da vətənpərvərlikdir. Mən də, yaşıdlarım da görür ki, ölümsüzlərə belə ehtiram var, həmişə olacaq. Fəryad eşitmədik, şəhidin əzizlərinin üzündə közə dönən göz yaşları gördük, "Təki Vətən yaşasın" - kəlmələrini eşitdik. Şəhidin oğlu atasının tabutuna döşənmişdi. Başını qaldırdı. Ona baxanlara baxdı. "Son dəfə görüşdüm atamla. Vidalaşdıq. Onun yolunu davam etdirəcəm", - dedi uşaq. Bir anlığa susdu... Tabutuna bükülmüş üçrəngli bayrağımızı öpüb ata əvəzi bağrına basdı. Qəhərini udub "Atamın əvəzindən mən deyirəm: Azərbaycana xidmət edirəm." Oğulun səsi şəhidin ruhunun səsiydi elə bil. Onun səsində bir inam vardı, bir qətiyyət vardı, bir sevgi vardı. İnam ordumuza inamıydı, qətiyyət hərbi qətiyyətiydi, sevgi Vətənə sevgiydi.

Yanımda olsaydı, yanında olsaydım, o uşağı qardaş əvəzi bağrıma basardım.

Şəhidlərin oğulları ata itkisindən nələr çəkdiyini üzə vurmur. Bu qəhər onların canından üzülməyəcək. Ancaq atasının Vətən üçün yaşadığını, Vətən naminə vuruşduğunu, Vətənə görə şəhid olduğunu xatırlayanda təsəlli tapır. Müqəddəs təsəllidi.

O uşaq məktəblidi. Məktəbdə şəhidlikdən, şəhidlərdən söz düşəndə atasından danışacaq. Vətən sevgisindən söz düşəndə atasından danışacaq. Lələtəpə uğrunda gedən döyüşlərdən söz düşəndə atasından danışacaq. Atasından danışa-danışa Vətən deyəcək. Bu da vətənpərvərlikdi.

Vətəni seviblər...

Vətəni sevirlər...

Vətəni sevirik. Həm də şəhidlərimizin arzuladığı kimi sevirik...

**Hüsniyyə İDRİSOVA**

# Ordu taekvondoçularının uğurları

*"Sərhədçi" Olimpiya İdman Mərkəzində taekvondoçuların Azərbaycan çempionatına yekun vurulub. Azərbaycan Taekvondo Federasiyası və Azərbaycan Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən yarışlarda Müdafiə Nazirliyi Mərkəzi Ordu İdman Klubunun taekvondoçuları da iştirak edərək yüksək nəticələr qazanıblar.*



Çempionata Bakı şəhərindən və Azərbaycanın müxtəlif bölgələrindən 230-dan artıq idmançı mübarizəyə qatılmışdı. MOİK idmançıları rəqabətin güclü olduğu yarışlarda uğurla çıxış ediblər. Əliasgər Əliyev (68 kq) və Bayraməli Vəliyev (87 kq) öz çəkilərində bütün rəqiblərinə qalib gələrək Azərbaycan çempionu adını qazanıblar və qızıl medala layiq görülüblər. Namaz Heydərov (74 kq) ilə Seyidəzim Bədirxanlı (80 kq) yalnız final qarşılaşmasında məğlub olaraq ordu idmançılarının hesabına iki gümüş medal əlavə ediblər. MOİK-i təmsil edən Mikayıl Əliyev (54 kq) uğurla mübarizə apararaq bürünc medala layiq görülüb.

İdmançılarımızın uğurları komanda hesabında Mərkəzi Ordu İdman Klubunu üçüncü yerə çıxarıb.

Eyni zamanda "Sərhədçi" Olimpiya İdman Mərkəzində yeniyetmə taekvondoçular arasında Azərbaycan birinciliyi də baş tutub. Paytaxt və regionları təmsil edən 2000-2002-ci il təvəllüdlü 365 gənc (300 oğlan, 65 qız) də birinciliyin medalları uğrunda mübarizəyə qatılıb. Ordu taekvondoçuları gənclərin yarışında da fərqləniblər.

Gənc "hərbçilər" üç gün davam edən yarışda müxtəlif əyarlı 5 medal qazanıblar. Oğlanların birinciliyində Bəhruz Quluzadə (45 kq), qızların yarışında isə Şəms Həsənova (68 kq) bütün rəqiblərini üstələyərək qızıl medal qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Nurlan Şirinov (48 kq) və Rza Məcidov (68 kq), qızlardan Sevil Zamanova (59 kq) MOİK-i layiqincə təmsil ediblər və birincilikdə üçüncü yeri tutublar.

Bu kateqoriyadan olan idmançılarımızın qazandığı ümumi nəticəyə görə Mərkəzi Ordu İdman Klubu komandalar arasında ikinci yerə layiq görülüb.

Taekvondoçularımızın qazandığı qələbələr Müdafiə Nazirliyi rəhbərliyinin ordu idmanına göstərdiyi diqqət və qayğının nəticəsidir. İnanırıq ki, hərbçi idmançılarımızın uğurları bundan sonra daha çox olacaq və onların xoş sorağını mötəbər beynəlxalq yarışlardan alacağıq.

**"Azərbaycan Ordusu"**

# Hərbi ənənələr, yeniliklər

## "Lynx EXTRA" reaktiv sistemi

Yaylım atəşli "Lynx EXTRA" reaktiv sistemi 300 mm çaplı raketlərdən atəş açmaq üçün nəzərdə tutulub. Bu tam müstəqil buraxıcı qurğu 10 dəqiqə ərzində təkrar doldurula bilir. O, KAMAZ-6350 8x8 şassisində yerləşdirilir. Bu platforma yüksək dəqiqliyə malik qanadlı raketlər və taktiki ballistik raketlər üçün buraxıcı qurğu kimi xidmət göstərə bilər. "Lynx EXTRA" reaktiv sistemi ilk dəfə İsrail ordusunun silahlanması üçün hazırlanıb. Onu hazırlamaqda məqsəd yerüstü hədəfləri məhv etmək üçün müasir raket silahının hazırlanmasıdır. Raketin atəş uzaqlığı 145-150 kilomertdən çoxdur və 125 kiloqramlıq döyüş başlığı ilə təchiz edilib. Çəkisi 450 kiloqramdır. Buraxıcı qurğunun yüksək keçidliyə və mobilliyə malik olması ona artilleriya hücumundan qorunmağa imkan verir. Onun bort sistemləri, hesablayıçı texnikası müstəqil və yaxud setesentrik sxem üzrə işləyə bilir. Yüksək dəqiqliklə yerüstü hədəfləri məhv etməyə qadirdir.



**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Boks üzrə açıq Bakı birinciliyinə yekun vurulub



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən 2001-2002-ci il təvəllüdlü yeniyetmələr arasında boks üzrə açıq Bakı birinciliyi keçirilib.

Boks Mərkəzində təşkil olunan yarışda 158 idmançı mübarizə aparıb.

Gərgin idman mübarizəsi şəraitində keçən birincilikdə Rüfət Fətullayev (44 kq), Maksud Xasmetov (46 kq), Murad Zeynalov (48 kq), Murad Mirzəyev (50 kq), Rəşid Həsənov (52 kq), Elşən Cəbizadə (54 kq), Elmir Novruzov (57 kq), Rüfət Mustafazadə (60 kq), Nicat Tağızadə (63 kq), Rüfət Nəbiyev (66 kq), Ziya Rəhimli (70 kq), Murad Allahverdiyev (75 kq), Adil Vəliyev (80 kq) və Vüqar Səmədov (80 kq-dan yuxarı) qızıl medal qazanıblar.

## Taekvondo üzrə Azərbaycan yığma komandasına yeni böyük məşqçi təyin olunub



Azərbaycanın taekvondo üzrə böyüklərdən ibarət yığma komandasına yeni böyük məşqçi təyin olunub.

Bu vəzifə Rəşad Əhmədova tapşırılıb. Qərar Azərbaycan Taekvondo Federasiyasının idarə heyətinin iclasında qəbul olunub. Bu təyinata qədər komandanın böyük məşqçisi Elnur Amanov idi. O, qadınlardan ibarət yığmaya baş məşqçi təyin olunub.

## U-21 Azərbaycan yığmasının "Avro-2019"-da rəqibləri müəyyənləşib



Yanvarın 26-da İsveçrənin Nyon şəhərində 21 yaşadək futbolçulardan ibarət komandalar arasında 2019-cu ildə İtaliyada təşkil olunacaq Avropa çempionatının seçmə mərhələsinin püşkatma mərasimi keçirilib.

Püşkün nəticəsinə əsasən, beşinci qrupda mübarizə aparacaq Azərbaycan yığması seçmə mərhələdə Almaniya, İsrail, Norveç, İrlandiya və Kosovo komandaları ilə qarşılaşacaq.

## "Azərreyl" voleybol komandası Çempionlar Liqasında Fransa təmsilçisi "Sen-Rafael"ə qalib gəlib



Azərbaycanın qadın voleybolçulardan ibarət "Azərreyl" və "Telekom" klubları Çempionlar Liqasında növbəti oyunlarını keçiriblər.

"C" qrupunda mübarizə aparan Azərbaycan çempionu "Azərreyl" dördüncü tur çərçivəsində Fransada "Sen-Rafael" komandası ilə qarşılaşıb. Görüş "Azərreyl"in qələbəsi ilə başa çatıb - 3:1. Qrupun digər oyununda "Fənərbağça" Polşada "Dombrova Qurniça"nı eyni hesabla üstələyib.

Beləliklə, üç oyundan sonra doqquz xal yığan Türkiyənin "Fənərbağça" komandası qrupda liderdir.

"Azərreyl" altı xalla ikinci, "Dombrova Qurniça" üç xalla üçüncü, xalı olmayan "Sent-Rafael" dördüncü pillədə qərarlaşıb. Turnirdə "A" qrupunda mübarizə aparan "Telekom" isə "Modena"nın (İtaliya) qonağı olub. Qarşılaşmada ev sahibləri hər üç seti qələbə ilə başa vurublar. Qrupun digər oyununda İtaliyanın digər təmsilçisi "İmoko" Polşada "Ximik"ə qalib gəlib-3:2.

**AZƏRTAC-ın materialları əsasında**


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Rəşid HÜSEYNOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz. | Lisenziya № **361** Sifariş № **29** Nüsxə **4650** |